# İtaliyada postmodern ədəbiyyatın prodromları

**Nərgiz İsmayılova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: ismayilovanargis@gmail.com

**Annotasiya.** İtalyan ədəbiyyatı, Orta əsrlər dövrü (1200-cü ildən 1400-cü ilə qədər), İntibah dövrü (1400-cü ildən 1550-ci ilə qədər), Barok Dövrü (1550-ci ildən təxminən 1700-cü ilə qədər), Klassizm və Romantizmdən əvvəlki dövr (1700-1815-ci illər), Romantizm və realizm dövrü (1815-ci ildən təxminən 1915-ci ilə qədər) və nəhayət, Dekadentizm və Modern Dövr (təxminən 1915-ci ildən bu günə qədər) kimi dövrləşdirilir. Postmodernizm modern dövrün daxilində özünə yer tutur. Postmodernizm dünyada əsas danışılan mövzu olduğu zamanlarda bu termin İtaliyada çox da geniş kütlə tərəfindən bilinmir və ciddiyə alınmırdı. Ədəbi sahədə, eksperimentalizm və neo-avanqardla əlaqəli təcrübələr tükəndikdən sonra, 70-ci illərdən etibarən nəsrə qayıdış gerçəkləşdi. 60-70-ci illərdə nəsr, nəqletmə sahəsindəki durğunluqdan sonra 80-ci illər italyan nəsri üçün dönüş nöqtəsi olmuşdur. Bunun səbəblərindən biri də nəsr əsərlərinin çoxalması və zənginləşməsi, eləcə də postmodernizm kimi yeniliklərdir. Beləliklə dövrün İtaliyasında baş verən dəyişikliklər və inkişaflar birbaşa nəsrə öz təsirini göstərirdi və İtaliya ədəbiyyatı tarixində daha əvvəl şahidi olunmayan təcrübələr ortaya çıxırdı.
**Açar sözlər:** İtalyan ədəbiyyatı, postmodernizm, roman, nəsr, cərəyanlar

**Məqalə tarixçəsi:** göndərilib – 05.12.2022; qəbul edilib – 14.12.2022

# Prodromes of postmodern literature in Italy

**Nargiz Ismayilova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: ismayilovanargis@gmail.com

**Abstract.** Italian literature, Middle Ages (1200 to 1400), Renaissance (1400 to 1550), Baroque (1550 to about 1700), Classicism and Romanticism periodized as the earlier period (1700-1815), the period of Romanticism and realism (from 1815 to about 1915), and finally the Decadence and Modern Period (from about 1915 to the present). Postmodernism takes its place within the modern era. When postmodernism was the main topic of discussion in the world, this term was not widely known and taken seriously in Italy. In the literary field, after the experiments associated with experimentalism and neo-avant-garde were exhausted, a return to prose was realized from the 70s. After stagnation in the field of prose and narration in the 60s and 70s, the 80s were a turning point for Italian prose. One of the reasons for this is the proliferation and enrichment of prose works, as well as innovations such as postmodernism. Thus, the changes and developments that took place in Italy at that time had a direct impact on the prose, and experiences that had not been witnessed before in the history of Italian literature emerged.
**Keywords:** Italian literature, postmodernism, novel, prose, trends

**Article history:** received – 05.12.2022; accepted – 14.12.2022

## Giriş / *Introduction*

“The Gruppo “63”-ə (“*63 qrupu”*) daxil olan müəlliflərin yaradıcılığında, (Edoardo Sanquineti, Elio Paqliarani, Nanni Balestrini, Antonio Porta, Sebastiano Vassalli, Umberto Eko) xüsusilə Giorgio Manganellinin əsərlərini oxuyarkən “Hylarotragoedia” ("Hilarotragediya" 1964-cü il), "Nuovo Commento" (“9 Yeni Şərh” 1969-cu il) və "Agli dei ulteriori" ("Əlavə Tanrılara" 1972-ci il) pastişdən istifadə, metatextual istinadlar, istehza və dildən tamamilə maneəsiz və eksperimental istifadə, mətnlərarası əlaqə kimi elementləri görmək mümkündür. Umberto Eko, Gianni Vattimo, Renato Barilli və Achille Bonito Oliva fəlsəfi, ədəbi və incəsənət sahələrində postmodernizm anlayışını anlamağa, istifadə etməyə və müzakirə etməyə çalışan ilk qabaqcıllardan idi. Baxmayaraq ki, 70-80-ci illərin sonunda dünyanın bir çox tənqidçiləri postmodernizmin mümkün tərifləri üzərində fikir mübadiləsi aparırdılar, italyan nəzəriyyəçiləri isə, əsasən, bununla bağlı fikir yürütmürdülər. İtaliyada postmodernizm 90-cı illərdə və sonrakı illərdə daha geniş şəkildə müzakirə olunmağa başladı, lakin cərəyanın ilkin rüşeymləri, prodomları artıq ədəbiyyatda görünürdü. Xüsusilə roman sahəsində 80-ci illərdən postmodernizm küləyi əsməyə başlamışdı.

## Əsas hissə / *Main Part*

İtaliyada artıq İtalo Kalvinonun “Bir qış gecəsi əgər bir yolçu” (“Se una notte d’inverno un viaggiatore” 1979-cu il), Umberto Ekonun “Qızıl gülün adı” (“Il nome della rosa” 1980-ci il) romanı çap olunmuşdu.

"The Crisis of Reason" ("Ağıl böhranı" 1979-cu il) esselər toplusunun redaktoru olan Aldo Qarqani və ya Pier Aldo Rovatti ilə birlikdə məşhur "Il pensiero debole" ("Zəif Düşüncə" 1984-cü il) redaktoru Canni Vattimo kimi alimlər nəinki təkcə İtaliyada ilk dəfə olaraq postmodernizm məsələsini qaldırdı, eyni zamanda bu mövzuda beynəlxalq müzakirələrin formalaşmasına və yenidən müəyyənləşdirilməsinə töhfə verdi.

“Bu illərdə Ginevra eompiani, Francesca Duranti, Gina Lagorio, Rosetta Loy, Dacia Maraini, Giuliana Morandini, Fabrizia Ramondino, Francesca Sanvitale, Marisa Volpi, Paola Kapriolo kimi qadın yazıçılar da fəaliyyət göstərirdilər. 1970-ci illərdə az qiymətləndirilən roman bu illərdə sanballı bir fəaliyyət kimi qəbul olunurdu” [9, s.1].

Bu dönəmdə Andrea DeKarlo öz fəaliyyəti ilə seçilirdi. Onun II Dünya müharibəsindən bəhs edən “Əsir quşlar” romanında İtaliya ədəbiyyatında gedən proseslər açıq-aydın hiss olunurdu. "Karyeralarında Andrea De Karlo və Daniele Del Giudice kimi yazıçıları dəstəkləyən və hətta De Karlonun "Treno di panna" (1981-ci il) romanına ön söz yazan Kalvinonun yeni nəsrin inkişafında və təbliğində əhəmiyyətli dəstəyi mövcud idi" [6].

Andrea DeKarlo 1981-ci ildə [1] ilk qələm təcrübəsi olan bildunqsroman və ya pikaresk roman kimi qəbul olunan 8 bölümdən ibarət “Treno di Panna” [2] əsərinin qəhrəmanı Amerikanın simvolu kimi görülən Los-Anceles şəhərinə sanki fotoaparat obyektivindən baxır. Romanın qəhrəmanı Covanni milanlı fotoqrafdır. Kalvinonun özündən əlavə, bir çox tənqidçi bu romanla Kalvinonu “Palomar” (1983-cü il) romanı arasında müəyyən bənzərliklərin olduğunu vurğulayıblar.

İtaliyada mədəni keçmişin mahir postmodern manipulyatorları olan, bu cərəyanın bütün xüsusiyyətlərini ustalıqla əsərlərində, nəzəriyyə kitablarında, mühazirələrində təhlil edən, ictimaiyyətə çatdıran Kalvino, Eko və Pietro Citati kimi postmodern İtaliyan ədəbiyyatında bu cərəyanın formalaşmasından böyük rol oynayan mütəfəkkirlər yaşamışdır. Çünki onlar həm də tədqiqatçı və nəzəriyyəçidirlər. Onlar ziddiyyətli və obyektiv olaraq rəqib müəlliflər və eyni zamanda dostdurlar. Onlar əsərlərində bir-birlərinə göndərmələr etmiş, Citati Kalvino ilə bağlı xatirə yazısı qələmə alınmışdır. Homer, Prust, Manzoni, Kafka kimi müəlliflər haqqında maraqlı yazılar yazan Citati, Tolstoyun tərcümeyi-halı ilə bağlı yazdığı mətnlə 1984-cü ildə Streqa mükafatı qazanmışdır.

İntellektual postmodernizmin əsas nümayəndələrindən biri olan Eko, eyni zamanda yaxşı nəzəriyyəçi idi.

İtalo Kalvino postmodernizmlə dərindən məşğul olmağa başlayan və bunu etdikdən sonra öz ədəbi əsərini yenidən qurmağa başlayan ilk italyan postmodernist müəlliflərindən biridir.

O, 60-cı illlərdə Oulipoya daxil olur və "yazmaq haqqında yazmaq" – dediyi öz stilini yaradır. Qeyd edək ki, eyni motivlər genişlənmiş şəkildə Umberto Ekoda da var idi.

Həmin dövrdə haqqında bəhs olunan müəlliflərlə yanaşı, İtaliyada Enriko Palandri, Pier Vittorio Tondelli, Klaudio Piersanti, Aldo Busi, Andrea De Karlo, Daniele Del Giudice kimi gənc yazarlar da mühitdə diqqət çəkməyə başladılar.

Antonio Tabucchi (1943-2012-ci illər) İtaliyada nəsr sahəsində rəngarəng yaradıcılığa sahib müəlliflərdən biri idi. Onun "Il gioco del rovescio" (1981-ci il), "Donna di Porto Pim" (1983-cü il) ve "Notturno indiano" (1984-cü il), "Piazza d'Italia" (1975-ci il) ve "Piccolo naviglio" (1978-ci il) kimi əsərləri İtaliyada marağa səbəb olmuşdur.

Göründüyü kimi, 80-ci illərdə İtaliyan ədəbiyyatı çox sürətli və konseptual yol qət etmişdir. Bu dönəmdə bildunqsroman inkişaf etməyə başladı. Bildunqsromanın müasir arxetipi alman yazıçısı İohan Volfqanq Getenin (1749-1832-ci illər) yaşadığı cəmiyyəti tərk edən gənc burjuaziyanın təcrübələrindən bəhs edən "Vilhelm Meisters Lehrjahre" ("Vilhelm Meysterin şagirdliyi" – 1795-ci il ) romanıdır.

Elio Vittorini (1908-1966-cı il) 1941-ci ildə Amerika ədəbiyyatının yeni antologiyasını – "Amerikana"nı nəşr etdi. Onun ən məşhur əsəri "Anti-faşist" idi.

Yaşadığı dövrdə radikal düşüncələri səbəbiylə tənqid olunsa da, o ömrünü İtaliyan ədəbiyyatının inkişafına, gənc yazarların formalaşmasına həsr etmişdi.

İtalyan ədəbiyyatında Vinçenzo Konsolonun "Lunaria" (1985-ci il), Klaudio Maqrisin "Danubio" (1986-cı), Luici Meneqellonun "Bau-séte" (1988-ci il) əsərləri populyarlıq qazanmışdı. Xüsusilə yeni yaranan əsərlərdəki fərqli görünən, postmodern prodomlar italyan tənqidçilər tərəfindən ciddi şəkildə tənqid olunsalar da, yazarlar öz fikirlərindən danışmır, dayanmadan yeni əsərlər çap etdirirdilər. Bu baxımdan xüsusilə 80-ci illər İtaliya ədəbiyyatı üçün səmərəli və yaradıcı bir dövr kimi əhəmiyyətlidir.

Qeyd etməliyik ki, italyan yazarların əsərlərinə Fransa və Almaniyada böyük maraq var idi, bu əsərlərdən bir çoxu həmin ölkələrin dillərinə tərcümə edilirdi. Alman və fransız tənqidçilər yeni yaranan italyan ədəbiyyatına böyük ümid bəsləyirdilər.

İtalyan yazarlar öz yaradıcılıqlarında kino və musiqidən geniş şəkildə təsirlənmişlər. Xüsusilə Andrea De Carlo "Uto" (1995-ci il) romanı, Pier Vittorio Tondellinin düşüncələrində, Giorgo van Stratenin "Generazione" kitabı buna nümunədir.

Gənclər ənənəni dekonstruksiya edir, pastişdən istifadə edirdilər.

Bununla yanaşı, süjet içində süjet və zamanın yüngüllüyü məsələsi bu dövr yazarlarının mətnlərində önəmli yer tuturdu. Daniele Del Giudice "Lo stadio di Wimbledon"u (1983-cü il) və İtalo Kalvinonun "Amerika dərsləri" (1988-ci il) əsərləri bu kontekstdən önəmlidir.

Kalvino "Amerika dərsləri"ndə Milan Kunderanın əsərində də geniş şəkildə bəhs olunan yüngüllük haqqında bu sualı verirdi: "Nə üçün zamanla yüngüllük məsələsini bir qüsur olaraq yox, dəyər olaraq görməyə başladım?" [5, s.18]

Daha sonra isə bu sualın cavabına səhifələrcə izah yazır, italyan ədəbiyyatındakı yenilikləri bir-bir təhlil edirdi.

"Aldo Busi 1984-cü ildə "Seminario sulla giovent"i nəşr etdi. Businin romanı macəra və pikaresk üslubda olmasına baxmayaraq, klassik mənada bildunqsromandır. Müəllif Milan və Venesiya, Paris və London arasında baş qəhrəman Barbinonun uşaqlıqdan yetkinliyə qədər həm insan, həm də mədəni səviyyədə inkişafından bəhs edir. Burada cinsiyyət anlayışı dekonstruksiya olunur və burjuaziyanın qaydaları tənqid olunur. Busi stilistik qrammatik pastişi sınayır" [4, s.8].

Yeni nəsr, nəqletmə konsepsiyasını başladan müəlliflər arasında yer alan Tondellinin (1955-1991-ci il) 1980-ci ilin yanvarında nəşr olunan ilk romanı "Altri libertini" aktual və çağdaş ədəbiyyat xüsusiyyətlərini əks etdirmək baxımından çox dəyərli nümunədir. Yazar Amerika minimalizmini ədəbiyyata ilk təqdim edən müəlliflərdəndir. Yazarın "Rimini" (1985-ci il) adlı romanı postmoder-

nizmin əhəmiyyətli nümunəsidir. Bu romana istehlak romanı, kütləvi roman, populyar roman deyə bilərik.

Postmodern nəzəriyyəçilər arasında istehlak məsələsini araşdırmalarının mərkəzinə qoyan fransız mütəfəkkiri Jan Baudriyar deyir ki, istehlak cəmiyyətində əmtəələrin rolunun təkcə kapitalizm nəticəsində deyil, həm də insan növünün ekologiyasında əsaslı transformasiya kimi meydana gələn dərin fərqlər müəyyən edilməlidir. Bu kontekstdən Riminidə gündəm məsələləri, zamanın tələbi konsepsiyası ön plandadır.

Pier Vittorio Tondelliyə şöhrət gətirən "Under 25" [7] (25 yaşdan aşağı,. Giovani Blues (1986-cı il), Belli & Perversi (1987-ci il) və Papergang (1990-cı il) layihəsi həm bədii, həm də mənəvi proyekt idi. Gənclərə dəstək məqsədli layihə 3 antologiyanı əhatə edirdi. Burada postmodernizmi özündə əks etdirən bir çox yazılar toplanılıb. Sonralar Tondelli "Un weekend postmoderno" əsərində 12 başlıq altında bir çox mövzunu sistemləşdirir. Bunu bildunqsroman adlandırır.

Ədəbiyyatda və incəsənətdə davam edən bir tendensiya kimi, postmodernizmin faktiki tənqidi qiymətləndirilməsi yalnız sonrakı onillikdə ortaya çıxır, bu kontekstdə ilk nəzəri kitabı-beynəlxalq postmodernizmin tarixinə dair ilk italyan kitabını 1997-ci ildə Remo Çeserani yazır. Kitab "Raccontare il postmoderno" adlanır, daha sonra İtaliyada postmodernizm haqqında kifayət qədər diqqətəlayiq kitablar nəşr olunur və postmodernizm termini getdikcə məşhurlaşır.

90-cı illərdə İtaliya kontekstində postmodernizmlə bağlı fərziyyələr onun təhlükəli düşüncə və real dünyadan qopmaq olduğuna dair düşüncələrin meydana çıxmasına yol açır, Romano Luperinin "La fine del postmoderno" ("Postmodernizmin sonu" – 2003-cü il) polemikalı essesində, göründüyü kimi, postmodernizmlə bağlı tendensiyalar final xarakteri daşıyır. Daha sonra, Raffaele Donnarummanın "Ipermodernità" ("Hipermodernlik" – 2014-cü il) və Mauritsio Ferrarisin "Manifesto del nuovo realismo"su bu gedişatda başqa konteksti ortaya çıxardı.

"Düşünürəm ki, postmodernizmlə bağlı mübahisələrin ABŞ-da yaranması təsadüfi deyildi. Postmodern əslində Amerika hegemonluğunun 1945-ci ildən bəri bütün Avropa mədəniyyətinə verdiyi formadır. Corc Steiner "Eden arxivləri" adlı essesində Amerikanın 2009-cu ilin ikinci yarısının mədəniyyəti üçün nə dərəcədə həlledici rol oynadığını effektiv şəkildə izah etdi. Bunu ifrat dərəcədə sintez edən Ştaynerin nəzəriyyəsi ondan ibarətdir ki, Amerika cəmiyyəti heç vaxt yüksək mədəniyyəti ciddi qəbul etməyib, heç vaxt təsəvvür edə bilməz ki, mədəniyyət – yunan və daha sonra Avropa modelinə uyğun olaraq – sosial cəhətdən faydasız və ya təhlükəli olsa belə, özlüyündə bir dəyər ola bilər" [3].

## Nəticə / *Conclusion*

Görüldüyü kimi, İtaliyada yaranan ilk postmodern nümunələr intellektualizmin bir çox xüsusiyyətini özündə əks etdirirdi. Burada yazıb-yaradan sənətkarlar humanist hisslərin daşıyıcıları idilər. İtaliyada yaranan bədii nümunələr, eyni zamanda postmodern sənətlə paralel şəkildə inkişaf edirdi.

## Ədəbiyyat / *References*


1. Andrea De Carlo. Treno di panna https://www.pausacaffeblog.it/wp/2017/12/andrea-de-carlo-treno-panna.html
2. Ania Gillian, Hallamore Ann. Trends in Contemporary Italian Narrative 1980- 2007, Newcastle, Cambridge Scholars Publishing, 2007.
3. Alfonso Berardinelli. From Postmodernism to Mutation. https://docer.com.ar/doc/ecvxcc1.
4. Atak M. 80'li yıllar İtalyan edebiyatında Andrea de Carlo'nun Uccellı da Gabbıa e da Volıera romanında korku ve kaçış izlekleri. http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/50231.pdf
5. Calvino İ. Amerika dersleri. Yapı kredi yayınları.
6. Harach Kaspar. La giovane narrativa. Department of Italian McGill University, Montreal, 1997.
7. Under 25": Giovani blues By Pier Vittorio Tondelli: https://www.goodreads.com/book/show/9715709-under-25

8. G.M.A. Christy. "Bildungsroman". https://thedawnjournal.in/wp-content/uploads/2016/01/6-Christy.pdf
9. Zygmunt G. Baranski, Lino Pertile, The New Italian Novel. Toronto, University Of Toronto Press, 1997.


## Продромы постмодернистской литературы в Италии


**Наргиз Исмаилова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: ismayilovanargis@gmail.com



**Резюме.** В итальянской литературе Средневековье (1200-1400), Ренессанс (1400-1550), барокко (1550-1700), классицизм и романтизм периодизируются как более ранний период (1700-1815), период романтизма и реализма (с 1815 по около 1915 г.) и, наконец, период упадка и Нового времени (примерно с 1915 г. по настоящее время). Постмодернизм занимает свое место в современной эпохе. Когда постмодернизм был главной темой обсуждения в мире, этот термин не был широко известен и серьезно не воспринимался в Италии. В литературной сфере после исчерпания экспериментов, связанных с экспериментализмом и неоавангардом, с 70-х гг. осуществился возврат к прозе. После застоя в области прозы и повествования в 60-х и 70-х годах переломным моментом для итальянской прозы стали 80-е годы. Одной из причин этого является распространение и обогащение прозаических произведений, а также такие новации, как постмодернизм. Таким образом, изменения и события, происходившие в то время в Италии, оказали непосредственное влияние на прозу, и возникли переживания, невиданные ранее в истории итальянской литературы.

**Ключевые слова:** итальянская литература, постмодернизм, роман, проза, течения